**Vergi əməkdaşları üçün treninq keçirilmişdir**

Kameral vergi yoxlamaları sahəsində vergi nəzarətinin effektivliyinin yüksəldilməsinə imkan verən amillər sırasında vergi sisteminin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən islahatlar, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi xüsusi yer tutur.

Vergi ödəyiciləri tərəfindən təqdim edilən bəyannamələr üzrə araşdırma və təhlillərin aparılması üçün analoji fəaliyyətlə məşğul olan vergi ödəyicilərinin məlumatlarından istifadə etməklə elektron uğunsuzluqdan kənar hesablamaların aparılması, kameral vergi yoxlamalarının səmərəliliyinin artırılması məqsədilə noyabr ayının 16-17-də Vergilər Nazirliyinin Tədris Mərkəzində bu sahə ilə məşğul olan vergi əməkdaşları üçün treninq keçirilmişdir. Tədbirin açılışında çıxış edən vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahir Məmmədxanov ölkə iqtisadiyyatının artım dinamikasından danışaraq bildirdi ki, qeyri-neft sektorunda artım ildən-ilə sürətlənir. Məhz bunun nəticəsidir ki, qeyri-neft sahəsi üzrə vergi daxilolmalarının xüsusi çəkisi artmışdır. Gələn ilin büdcə gəlirləri 19 milyard 154 milyon manat müəyyən edilmişdir və Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 6 milyard 400 milyon manat vəsaitin daxil olması proqnozlaşdırılır. Proqnoz tapşırığının 3 milyard 760 milyon manatı qeyri-neft sektorundan vergi daxilolmaları təşkil edir. Bu rəqəmlər 2013-cü ildə qarşıda duran vəzifələrin nə dərəcədə ciddi olacağını göstərir.

Sahir Məmmədxanov əlavə etdi ki, vergilər nazirinin əmrinə uyğun olaraq, Tədris Mərkəzində təşkil olunmuş ikigünlük tədbirin mövzusu heç də təsadüfi seçilməyib. Kameral vergi yoxlamaları, dövlət satınalmaları ilə bağlı qarşıya çıxan sualların cavablandırılması və problemlərin həlli yollarının birgə araşdırılması, vergi ödəyicilərindən daxil olan şikayətlərin təhlili zəruridir. Cari ilin ötən 10 ayı ərzində 340 mindən yuxarı kameral vergi yoxlaması aparılmışdır. Kameral yoxlamalar sahəsində aparılan işlər müsbət qiymətləndirilə bilər. Ancaq bu sahədə yeni mütərəqqi metodların tətbiqi də böyük önəm kəsb edir.

Hər il regionlara təxminən 4-5 milyard manatlıq investisiyalar qoyulur. Bu baxımdan, vergi nəzarətinin səmərəli qurulması ücün apardığımız islahatlar müsbət nəticələrini verməlidir. Vergi işçiləri öz sahələrində bilik və təcrübələrini daim artırmalıdırlar ki, hər bir yeniliyi vaxtında və yerində tətbiq edə, qarşıya çıxan çətinliklərin öhdəsindən gələ bilsinlər.

S.Məmmədxanov qeyd etmişdir ki, dövlət satınalmalarına vergi nəzarətinin səmərəli təşkili Vergilər Nazirliyinin daim diqqət mərkəzində olmuşdur. Buna görə də ötən il nazirlikdə bu sahə ilə bağlı şöbə yaradılmışdır: «Cari ildə ərazi vergi orqanlarına dövlət satınalmalarına vergi nəzarətinin təşkili ilə bağlı metodiki tövsiyələr göndərildi və bu istiqamətdə işlərin təxminən 80-90%-ə yerlərə həvalə olundu. Bu il dövlət satınalmaları üzrə 6 milyard manat dövriyyə müəyyənləşib. Nəzərə alsaq ki, bu rəqəm ötən il 2 milyard manata yaxın idi, onda bu göstəricinin ildən-ilə artacağı istisna olunmur. Aidiyyəti dövlət orqanları ilə bu sahədə qarşılıqlı əlaqələrin genişləndirilməsi istiqamətində işlər davam etdirilir. Bu istiqamətdə vəziyyətin günün tələbləri səviyyəsinə çatdırılması üçün işlərimizi elə qurmalıyıq ki, satınalmalar üzrə vergidənyayınma hallarının qarşısını maksimum dərəcədə ala bilək».

Daha sonra toplantıda çıxış edən Vergilər Nazirliyinin İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin şöbə rəisi Nəsib İsgəndərov kameral vergi yoxlamaları ilə bağlı nazirliyin həyata keçirdiyi işlər, əldə olunan nəticələr haqqında əyani vəsaitlərlə məlumat verdi, vergi əməkdaşlarının suallarını cavablandırdı.

Tədbirin effektivliyinin artırılması, interaktivliyin təmin olunması üçün əvvəlcə vergi əməkdaşları dörd qrupa ayrıldı və qoyulmuş mövzularla bağlı ayrı-ayrı istiqamətlər müəyyənləşdirildi. Fəal diskussiya və geniş təhlillər şəraitində keçən treninq zamanı hər bir qrupun üzvləri qarşılaşdıqları çətinliklər, anlaşılmazlıqlar, qanunveriçiliyin tətbiqi və s. məsələlər barədə müzakirələr apardılar.

Tədbirin ikinci günü Vergilər Nazirliyinin İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin şöbə rəisi Vüqar Əliyev dövlət satınalmalarına vergi nəzarəti ilə bağlı məruzə ilə cıxış edərək əldə olunan nəticələr, ortaya cıxan çətinliklər haqqında məlumat verdi.

Treninq ərzində vergi əməkdaşlarına qruplar arasında müzakirələr aparmaq və öz suallarını, təkliflərini həmkarlarına ünvanlamaq, eləcə də qarşılaşdıqları problemləri Vergilər Nazirliyinin İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin rəisi Natiq Şirinovla müzakirə etmək, ondan müvafiq cavablar və tövsiyələr almaq imkanı yaradılmışdı.

Vergi əməkdaşları bizimlə söhbətləri zamanı treninqin onlar üçün son dərəcə faydalı olduğunu bildirdilər.

Bakı Şəhər Vergilər Departamentinin Vergi ödəyicilərinin uçotu idarəsinin rəisi Ədalət Fərəcov: «Tədris Mərkəzində təşkil olunmuş bu tədbir müasir, interaktiv metodlarla keçilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Hesab edirəm ki, treninqin beynəlxalq təcrübəyə əsaslanan yeni - «open space» (acıq məkan) formasında aparılması vergi işçilərinə qarşılaşdıqları problemlər, kameral vergi yoxlamaları aparılarkən qanunvericiliyin tətbiqi zamanı ortaya çıxan çətinliklər, vergi ödəyicilərinin vergidən yayınmaması üçün hansı metod və vasitələrdən istifadə və s. haqqında heç nədən çəkinmədən, rahat şəkildə geniş müzakirələr aparmalarına zəmin yaratdı. Treninq zamanı irəli sürülmüş təkliflər, qaldırılmış suallar maraqlı və aktual idi. Bir çox problemlər Vergilər Nazirliyinin aidiyyəti strukturlarının rəhbər vəzifəli şəxsləri ilə müzakirə edildi, istər qanunvericilikdə, istərsə də praktikada qarşıya çıxan və mübahisə doğuran məsələlərlə bağlı fikir mübadiləsi aparılaraq tövsiyələr dinlənildi. Bütün bunların nəticəsində isə bir çox məsələlərə aydınlıq gətirildi və hesab edirəm ki, vergi əməkdaşlarının gələcək fəaliyyyətləri zamanı bu treninqin böyük faydası olacaq».

5 saylı Ərazi Vergilər İdarəsinin Vergi ödəyicilərinə xidmət şöbəsinin rəisi Pənah Məmmədov: «İqtisadi sahələr üzrə kameral vergi yoxlamaları və dövlət satınalmalarına vergi nəzarəti mövzusunda aparılan tədbir çox yüksək səviyyədə təşkil olunmuşdu. Məncə, problemlərin qrup müzakirələri fonunda qaldırılması və konkret təkliflərin irəli sürülməsi treninqin üstün cəhətlərindən idi. Müzakirələr və təhlillər vergi əməkdaşlarının fəaliyyətinin yaxşılaşdırılmasına xidmət etməklə yanaşı, həm də biliklərimizin artırılmasına kömək etdi».

11 saylı Ərazi Vergilər İdarəsinin Bəyannamələrin kameral yoxlanması şöbəsinin rəisi Fuad Mahmudov: «İlk növbədə, qeyd etmək istərdim ki, qoyulmuş mövzular öz aktuallığı ilə seçilirdi. Mövcud problemlərin həlli istiqamətində görüləcək işlər, yeni sistemlərin tətbiqi ilə bağlı əldə etdiyim biliklər, həmkarlarım ilə fikir mübadiləsi aparmaq çox faydalı oldu.

Dünya təcrübəsindən məlumdur ki, ölkədə işgüzar fəallıq artdıqca vergidən yayınma halları və vergi hüquqpozmaları da çoxalır. Qanunvericiliyin və vergi inzibatçılığının müntəzəm surətdə təkmilləşdirilməsinə baxmayaraq, vergi ödəyiciləri tərəfindən vergidən yayınma metodları və formaları dəyişir. Bu isə öz növbəsində daha ciddi nəzarət mexanizmlərinin tətbiqini tələb edir. Treninq zamanı həmkarlarım ilə birgə apardığım fikir mübadiləsi, onlarla iş prosesinə aid yenilikləri bölüşmək işlərin uğurlu təşkili baxımından çox əhəmiyyətlidir. Bundan əlavə, treninqdə liderlik qabiliyyətinin formalaşması və komanda ilə işləmək keyfiyyətlərinin aşılanması da faydalı idi».

Rəşad SADIQOV